# mr.Derz®

## Sement əsaslı kafel və keramika dərz dolğusu

Məhsul kodu: Rəng kartelasına baxın




### Məhsul haqqında

**mr.Derz®** sement əsaslı, kafel və keramika üçün dərz dolğu materialıdır.
**TS EN 13888 - ÇD1** sinfinə uyğundur.
ÇD = Sement əsaslı dərz dolğusu,
1= Normal dərz dolğu materialları

### İstifadə sahələri

- Daxili məkanlarda, şaquli və üfüqi səthlərdə, mövcud səthlərə yapışdırılmış kafel və keramika dərzlərinin doldurulmasında
- Binalarda
- Ticarət mərkəzlərində
- Mehmanxanalarda istifadə edilir

### Üstünlükləri

- Rəngini qoruyur
- Asan hazırlanır və tətbiq edilir
- Həssas səthləri cızmır
- 2-5 mm dərz genişlikləri üçün uyğundur
- Keramika kənarlarına çatlamadan əla yapışır
- İşlənə bilmə müddəti uzundur

### Texniki göstəriciləri

| Materialın Tərkibi | Xüsusi sement, mineral dolğular, polimer |
|---|---|
| Təzyiqə müqaviməti | ≥15 N/mm² |
| Əyilməyə müqaviməti | ≤3,50 N/mm² |
| Suyu əmməsi<br>30 dəqiqə<br>240 dəqiqə | <br>≤5 qr<br>≤10 qr |
| Aşınma müqaviməti | ≤2000 mm³ |
| Tətbiq ediləcək zəminin istiliyi | +5⁰C +25⁰C |
| Xidmət istiliyi | -20⁰C + 80⁰C |
| Gözləmə müddəti | 3-5 dəqiqə |
| İstifadə müddəti | 2 saat |
| Can suyu vermə | 10-20 dəq |
| Üzərində yeriyə bilmə müddəti | 24 saat |
| Qarışığın sıxlığı | ~1,90 kq/litr |

Yuxarıdakı qiymətlər +23⁰C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### İstifadə təlimatı

Səthin hazırlanması
Kafel və keramika dərzlərinin doldurulmasından əvvəl, istifadə edilən yapışdırıcının kifayət qədər bərkiməsi gözlənilməlidir. mr.Dərz® tətbiq edilmədən əvvəl, səth, keramikaya zərər verməyəcək üsullar ilə təmizlənməli və sulu süngərlə nəmləndirilməlidir.

### Hazırlanması

İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr Dərz® yavaş- yavaş əlavə edilərək 400- 600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, topalar həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

### Toz və su nisbətləri

1 kq toz üçün ~0,32 l su
20 kq toz üçün ~6,40 l su

### Sərfiyyat

Sərfiyyat miqdarları nəzəridir. Toz məhsul sərfiyyatlarını göstərir.

| Keramika | mr.Dərz® üçün sərfiyyat cədvəli 1-6 mm | | | |
|---|---|---|---|---|
| Ölçüləri | Dərz genişliyi | | | |
| | 2mm (qr/m²) | 3mm (qr/m²) | 5mm (qr/m²) | 6mm (qr/m²) |
| 10x10 | 400 | 600 | 1000 | 1200 |
| 10x20 | 300 | 450 | 850 | 1020 |
| 15x15 | 270 | 400 | 750 | 900 |
| 20x20 | 270 | 400 | 750 | 900 |
| 20x25 | 270 | 400 | 750 | 900 |
| 20x30 | 250 | 350 | 650 | 780 |
| 30x30 | 200 | 300 | 500 | 600 |

## Alətlərin təmizlənməsi

Tətbiqdən sonra istifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr.Dərz® bərkidikdən sonra ancaq mexaniki şəkildə səthdən təmizlənə bilər.

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlanma şəratində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 1, 5, 10 və 20 kq ±2%**

K-Q TSE-ISO-EN 9000

AZS